# "İnklüziv təhsil: mahiyyəti və praktik əsasları"



## Naxçıvan Müəllimlər İnstitutunda elmi-praktik konfrans

Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün "İnklüziv təhsil: mahiyyəti və praktik əsasları" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda institutun professor-müəllim heyəti, tələbələri və muxtar respublika ümumtəhsil məktəblərinin 60 nəfər müəllimi iştirak edib.

Konfransı giriş sözü ilə açan Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov qeyd edib ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilalma səviyyəsi getdikcə yüksəlir, onların əksəriyyəti təhsilə cəlb edilir. Buna görə də inklüziv təhsilin təşkilinin təlim-tərbiyə prosesinin səmərəli nəticə verməsi üçün onun müasirləşməsinə qoyulan standartlara cavab verməsinə nail olmaq əsas tələblərdən biridir. Rektor vurğulayıb ki, müasir dövrdə təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, məhdud imkanlara malik uşaqlara mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir. Bu zaman həmin uşaqlar öz yoldaşlarının nailiyyətlərini təkrarlamağa çalışır, onlar kimi hərəkət etməyə, danışmağa, fəaliyyət göstərməyə özlərində güc-qüvvət tapırlar. Belə uşaqlar özlərini yararsız hesab etmir, əksinə gərəkli olduqlarını hiss edirlər. Bu baxımdan, xüsusi qayğıya ehtiyacı olan uşaqların daha keyfiyyətli təhsilə yiyələnməsi, cəmiyyətə daha tez adaptasiyası üçün digər yaşıdları ilə bir yerdə olması daha məqsədəuyğundur. Azad Novruzov bildirib ki, bu işdə məsuliyyət mahiyyət etibarı ilə daha çox müəllim və valideynlərin, psixoloq və tərbiyəçilərin üzərinə düşür. Tərbiyəçi müəllim həmişə qrupda sağlam şəraitin, hər bir uşaq üçün tələbatı ödəyəcək adaptiv təlim mühitinin yaradılmasına və xüsusi qayğıya ehtiyacı olan uşağın təlim prosesinə qoşulmasına dəstək olmalıdır.

Sonra Pedaqogika və psixologiya kafedrasının müəllimi Aynurə Məmmədovanın "İnklüziv təhsilin mahiyyəti və müasir dövrdə təşkilinə verilən tələblər", Məhdud fiziki imkanlılar üçün Naxçıvan regional informasiya mərkəzinin direktoru Minurə Musayevanın "Xüsusi təhsil anlayışı, mahiyyəti, Muxtar Respublikada xüsusi təhsil üçün mövcud şərait, imkanlar və əldə olunmuş uğurlar", Pedaqogika və psixologiya kafedrasının müəllimi, defektoloq, loqoped Almaz Məmmədovanın "İnklüziv təhsilin metodiki və praktiki imkanları" mövzularında çıxışları dinlənilib. Diqqətə çatdırılıb ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla təlim-tərbiyə prosesində aparılan işlərdə valideynlərin iştirakı və onların dəstəyinin zəruriliyi həlledici rol oynayır. Valideynlər bu proseslərdə həm də tərəf müqabil kimi fəal iştirak etməlidirlər. Bu qarşılıqlı münasibətlərin formalaşmasında valideynlərə və uşaqlara məktəb psixoloqunun da yardım göstərməsi xüsusi əhəmiyyət daşıyır. Məruzəçilər qeyd edib ki, inklüziv təhsil sahəsində çalışan hər bir müəllim, tərbiyəçi xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası, təhsilə cəlb olunması, uşağın və ailənin psixoloji problemlərinin araşdırılması, onların maarifləndirilməsi uşağın ünsiyyət və nitq bacarıqlarının qiymətləndirilib inkişaf etdirilməsi istiqamətlərində bacarıqlara qadir olmalıdır.

Sonda iştirakçıların mövzu ilə bağlı təklifləri qeydə alınıb, onları maraqlandıran suallar cavablandırılıb.

**Aygül MƏMMƏDOVA,**
*Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti*

Azərbaycan müəllimi.2022.23 dekabr.S.15.